2017-ci ilin yanvar-iyul aylarında muxtar respublikada nəqliyyat müəssisələri və avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən fiziki şəxslər tərəfindən 8794,9 min ton yük, 55510,9 min nəfər sərnişin daşınmışdır. 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 1,9 faiz, sərnişin daşınması 2,1 faiz artmışdır. Yük və sərnişin daşınmasından bütövlükdə 31461,5 min manat gəlir əldə edilmişdir ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 4 faiz çoxdur.

Qeyri-dövlət sektorunda 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 2 faiz, sərnişin daşınması 1,8 faiz, yük və sərnişin daşınmasından əldə olunan gəlir isə 2,1 faiz artmışdır.